# Uşaq nəsri və dramaturgiyası - 2019



**İlhamə AĞAZADƏ**

Uşaq və gənclərə ünvanlanmış ədəbiyyatın əsas missiyası, məqsədi bədii sözün təsiri ilə öyrətmək, tərbiyə etmək olmalıdır. Bunu nəzərdə tutan ümummilli lider Heydər Əliyev demişdir: "Cəmiyyətin gələcək tərəqqisi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır". Ötən 2019-cu ildə yaranmış uşaq ədəbiyyatı nümunələrinə də elə bu fikir işığından yanaşmaq hesab edirəm ki, doğru olar.

Məhsuldar və qeyri-məhsuldar olmasından asılı olmayaraq, "Göyərçin", "Göy qurşağı" "Sehirli dünya", "Savalan", "Tumurcuq" və s. uşaqlar üçün təsis edilmiş qəzet və jurnallar ötən ildə də fəaliyyətini davam etdirmişdir. Elektron nəşrlərdən "Uşaq bilik portalı", balalar-az.com, bebe.az, sehrli dünya.com və digər saytları nəzərdən keçirdiyimiz zaman bu portalların artıq bir neçə ildir ki, yenilənmədiyini, əvvəlki illərdə də klassik ədəbiyyat nümunələrini sayta yerləşdirməklə kifayətləndiyinin şahidi olduq. Uşaqlar üçün yaradılmış saytlardan təkcə "Uşaq bilik portalı" müntəzəm şəkildə yenilənir. Sırf uşaqlar üçün yaradılmış mətbu orqanlarından savayı ötən 2019-cu ildə "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Kaspi" və sair qəzetlər, kulis.az, manera.az. saytları və ayrı-ayrı nəşriyyatlar da vaxtaşırı gələcəyimizin davamı olan balalarımızı unutmamışdır.

Ötən 2019-cu ildə Zahid Xəlil, Rafiq Yusifoğlu, Qəşəm İsabəyli, Akif Abbasov, Əli Səmədli, Sevinc Nuruqızı, Reyhan Yusifqızı, Aygün Bünyadzadə, Mina Rəşid, Şövkət Horovlu, Nazilə Gültac, Eyvaz Zeynalov, İradə Aytel və digər müəlliflər Qarabağ, müharibə, vətənpərvərlik, milli-mənəvi dəyərlər, dövlət atributları təbiət, heyvanlar aləmindən bəhs edən müxtəlif mövzularda qələmə alınmış nağıl, hekayə, povest və dram nümunələrini kiçik oxucularına ərmağan etmişlər.

Kübra Qarabağlının "Dağlar küləyi" hekayəsində müəllif müharibə adlı dəhşətli kabusun vurduğu yaraları bədiiləşdirib.

Akademik İsa Həbibbəyli doğru olaraq vurğulayır: "Vətənpərvərlik - uşaq ədəbiyyatının canı və ruhudur. Sadə və aydın ana dilində yazılmış və vətənpərvərlik üstündə köklənmiş Azərbaycan uşaq ədəbiyyatı xalqımızın müstəqil dövlətçilik uğrunda mübarizəyə hazırlanmasına şərəflə xidmət etmişdir". Bu ənənə hər zaman davam etdirilməlidir. Musa Quluzadənin "Məhv edilmiş oyuncaqlar", Elçin Mehrəliyevin "Gecikən yaz", Alxas Alxasovun "Ölməz qəhrəmanlar", Mina Rəşidin "Mübariz" hekayələri vətən uğrunda döyüşlərdə igidlik göstərərək həlak olmuş Azərbaycanın milli qəhrəmanlarına həsr olunmuşdur.

Şövkət Horovlunun "Kəndimizin bənövşəsi" və Mənsurə Məmmədovanın "Vətən həsrəti" hekayələrində didərginlik, qaçqınlıq həyatı, onun xalqımızın psixologiyasında buraxdığı dərin iz və bütün bunların nəticə etibarilə milli mənəviyyata vurulan dəhşətli zərbə olduğu daha maraqlı, təsirli lövhələrlə canlandırılır...

Ətraf aləm, təbiət təsvirləri haqqında olan hekayələr balacalara yüksək estetik zövq aşılayır. Bu baxımdan Nazilə Gültacın "İnadkar küləyin nağılı" adlı əsəri maraq doğurur. Uca bir dağı yenməyə çalışan şıltaq küləyin peşmanlığı uşaq düşüncəsinə uyğun şəkildə canlandırılıb. Hicran Hüseynovanın "Dərdli pişik haqqında ballada" hekayəsində əsas məqsəd böyüklər qədər uşaqlarda da heyvanlara qarşı rəhmli olmaq, onları qorumağın gərəkli olduğunu anlatmaqdır. Alxas Alxasovun "Qaranquşlar", Afət Nurullayevanın "Ağac ağlayırdı", Əvəzin "İnsan xəyanəti" hekayələri kiçik yaşlı məktəblilərdə təbiətə sevgi, qayğı duyğuları yaradır.

Rafiq Yusifoğlu uşaq ədəbiyyatında məhsuldar və səmərəli fəaliyyət göstərən yazarlardandır. Müəllifin müasirliyi və orijinallığı ilə diqqəti cəlb edən, aydın və lakonik bir dillə qələmə alınmış hekayələri ötən il "Göyərçin" jurnalının səhifələrini bəzəmişdir. ...Allahverdi Eminovun "Yuxu", "Hazırcavab", Zakir Bağırın "Qarışqalar", Tahirə İsgəndərovanın "Yaxşı ki" hekayələri maraqlı nümunələr sırasındadır. Uşaq və gənclərə ünvanlanmış nağıl və hekayələrində Gülzar İbrahimova maraqlı rənglər və bədii formalar seçərək onların yaş səviyyəsinə uyğun təsəvvür yaradır.

...Ötən ilin məhsulu olan bir sıra hekayələrdə şifahi xalq ədəbiyyatından bəhrələnmə özünü göstərir. Ənənəvi nağıl formulu ilə başlayan və nağıl adlandırılan belə əsərlərdən Rafiq Yusifoğlunun "Qarajın nağılı", Zemfira Məhərrəmlinin "Ana pişik və yavruları" nağıl-hekayələri maraqlı nümunələrdəndir. Qəşəm İsabəylinin "Nəyəsəklə Urğo Naçisin əhvalatı" və "Sarı balıq, fil xortumu və xidmətçi qadın" alleqorik nağıl-hekayələri folklordan qaynaqlanır.

"Ulduz" jurnalında "Uşaq ədəbiyyatı" başlığı ilə İlqar Dumanın (Qocayev) "Qoyunların nağılı" əsəri verilib. Bu "nağıl"ın dili olduqca qəlizdir, nağıllardakı şirinlik, ürəyəyatımlılıq nəzərə çarpmır.

Fuad Tanrılının "Qulaqburması", Könül Abdullayevanın "Bizim balaca Fərəh", Eyvaz Zeynalovun "Məktəbli forması", Rəfiqə Məmmədovanın "Ağacların məhəbbəti", "Nəğməkar quş", "Bizim bağ"; İradə Aytelin "Eynək taxan günəş" hekayələrinin mövzusu gündəlik həyatdan, məişətdən alınmışdır.

Vaxtaşırı uşaq ədəbiyyatı məsələlərini gündəmə gətirən, uşaqlara aid özəl günlərdə hətta bütöv nömrəni onlara həsr edən "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan və tənqidçi Elnarə Akimova ötən illərdə olduğu kimi bu il də uşaq ədəbiyyatı problemlərini müzakirə saatına çıxardılar.

Ötən il Elnarə Akimovanın çağdaş uşaq ədəbiyyatının problemlərindən bəhs edən bir neçə tənqidi məqaləsi çap olunub. Tədqiqatçı araşdırmalarında, məqalə, çıxış və müsahibələrində müasir uşaq ədəbiyyatının uğurları ilə yanaşı, ciddi problemlərinin olduğunu da qeyd edir. Bu sahədə mövcud vəziyyətlə bağlı haqlı olaraq həyəcan təbili çalan tədqiqatçı yazır: "Uşaq ədəbiyyatı tarixi və tənqidi ilə bağlı tədqiqatlara diqqət artırılmalı, sovet dönəmində yazılmış bir sıra uşaq əsərlərinə yeni metodoloji əsaslarla yanaşılmalıdır". Mina Rəşid, Xanım Aydın, İ.Ağazadə, G.Qəmbərova, S.Bayramova və bir sıra digər müəlliflərin də uşaq ədəbiyyatının aktual problemləri ilə bağlı yazıları dərc olunub.

2019-cu ildə Xalq yazıçısı Elçinin "Mənə niyə gülürlər", Vüqar Haqverdiyevin "Saçları səməni oğlan", Əziz Sultanın "Bakıdakı son osmanlı" "Novruz baba", "Qarışqa uşaq", Akif Abbasovun "Uşaqlar üçün hekayələr" kitabları dərc olunub. Müasir uşağın tərbiyəsində fantastik əsərlərin rolu böyükdür.

Ötən il uşaq nəsrimizin maraqlı nümunələrini yaratmış Reyhan Yusifqızı "Şəhrizadın son nağılı" pyesində uşaqları Şərqin qədim ölkələrindən olan Yaponiya və Hindistana səyahətə aparır.

Mədəniyyət Nazirliyinin Birpərdəli dram əsərləri müsabiqəsində S.Nuruqızının "Al çobanyastığı ləçəkləri" pyesi III yerə layiq görülüb...